UOT 615. 616. 33.34 636.21

# BUZOVLARDA MƏDƏ-BAĞIRSAQ XƏSTƏLIKLƏRININ MÜALICƏ VƏ PROFILAKTIKASI ÜSULLARI

**F.N.NƏSİBOV, A.A. MƏMMƏDOVA**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

*Yeni doğulmuş heyvanların dispepsiya və mədə-bağırsaq traktının başqa xəstəlikləri ilə yoluxması geniş yayılıbdır. Bu xəstəlik xüsusilə heyvanların yemləmə rejimi, rasionun tərkibi və fermanın sanitar vəziyyəti pozulduqda, həmçinin çox zaman ana-inəklərdəmastit qeyd olunan təsərrüfatlarda daha geniş yayılır.*

***Açar sözlər**: buzov, dispepsiya, kolibakterioz, müalicə, profilaktika, toxuma preparatı, hidrolizat*

Hələ keçən əsrin 40-cı illərində hidroliz vasitəsilə müxtəlif orqan və toxumalardan alınan toxuma preparatları və lizatlardan istifadə edirdilər. Belə ki, kollagenin qismən hidrolizi yolu ilə qığırdaq və sümüklərin tərkibində xondrolizat olan jelatin alırlar.

Buzovlarda ishal və qan axmalar zamanı jelatinin 10%-li su məhlulunun 10-20 ml həcmindəbir dəfəyə tətbiqi barədə məlumatlar mövcuddur.Lakin, nəzərə alsaq ki, jelatin mikrobların boy və inkişafı üçün yaxşı qida mühitidir, bu zaman inyeksiya məqsədilə yalnız dəqiq sterilizasiya edilmiş jelatin məhlulundan istifadə olunur.Buzovların vəziyyətləri ağır olduqda venadaxili Ringer-Lokk məhlulu inyeksiya olunur. Lakin, lazım gəldikdə müalicə kursunu 6-7 gün də uzadırlar. Kolibasillyoz (ağ ishal) zamanı kifayət qədər uğurla 25 ml dozada bakteriofaq tətbiq edirlər.

Dispepsiya ilə xəstə buzovların müalicəsində, zülal preparatları: hidrolizin, aminopeptid, qlobulin tətbiq olunur[1,2]. Zülal hidrolizatı heyvan orqanizmini yaxşı stimullaşdırır və yalnız xəstəliyin başlancığında, nə vaxt ki, orqanizm tam zəifləmir və preparatın stimuləedici təsirinə reaksiya verə bilir yüksək, effektivlik göstərir. Bu onun yüksək qidalılığı, buzovların orqanizminin turşu-qələvi tarazlığına əlverişli təsiri ilə izah olunur.

Yaxşı nəticələr 1:1 nisbətində xlorid turşusu ilə 120$^0$C temperaturda avtoklavda bir saat müddətində aşılanmamış dəri xammalının tullantılarından hazırlanmış hidrolizatların tətbiqi zamanı əldə olunur, filtratın Ph-nı 4,0-4,2-ə çatdırırlar.

Hidrolizat bağırsaq çöpləri və sallmonellalara qarşı bakteriostatik və lizisə uğramaq xüsusiyyətlərinə malikdir. Gündə 3 dəfə 100 ml dozada 6-7 gün tətbiq etdikdə buzovlarda dispepsiya xəstəliyini dayandırır. Bir aylıqda buzovların canlı kütləsi 10-11% yüksəlir. Profilaktiki məqsədlə hidrolizatı tətbiq etdikdə, buzovlar arasında mədə-bağırsaq xəstəlikləri baş vermir[4].

Son illədə həm baytarlıqda, həm də tibbidə elektrokimyəvi aktivləşdirilməş məhlullar(EKA) öz tətbiqini tapıb. Onları xörək duzu və başqa duzların əsasında elektrik cərəyanını onlardan keçirilməsi yolu ilə alırlar[4].Məhlulları Redoks potensialdan başlayaraq, -500 mB mikrobların boyunudayandırır, +1100 mB-da isə 10 gün müddətində öz təsirini saxlayaraq bakteriosid effekt göstərirlər. Aparılmış tədqiqatlar göstərdi ki, EKA orqanizmdə fizioloji regenerasiyalara və bəzi metabolik proseslərə təsir edir. Bu məhlullar bakterisid və sporosid xüsusiyyətlərə malikdirlər.

Tədqiqatlar[1] göstərdi ki, buzovların dispepsiyaya qarşı rezistentliyini müəyyən edən əsas amil, onların qanında immunoqlobulinlərin səviyyəsidir ki, buda anadan balaya cift vasitəsi ilə deyil, yalnız ağız südü ilə ötürülür. Yeni doğulmuş buzovlarda selikli qişanın adsorbsiyası həyatlarının ilk 18-36 saatı müddətində baş verir.

Buzoavların toksiki dispepsiyası zamanı baytar həkiminin qısa məlumat kitabçasında gündə 2-3 dəfə (yemləmədən 10-20 dəqiqə qabaq) 30-50 ml dozada atların təbii mədə şirəsi və yaxud süni mədə şirəsini antebakterial preparatlarla uyğunlaşdırıb tətbiq olunması tövsiyyə olunur[5]. Yeni doğulmuş buzovlarda dispepsiya damardaxilində trombların yaranmasına imkan yaradan trombositar funksiyanın fəallaşması ilə müşayiət olunur ki, bunun nəticəsində də heyvan həlak olur [4].

Ekolo-texnoloji problemlər institutunda (Moskva ş.) fosfopaq preparatı işlənib hazırlanmışdır. Buzovların dispepsiyasında EKOS-hidroalüminat sorbentlərinin tətbiqi zamanı müsbət nəticələr əldə olunmuşdur. Fosfopaq və EKOS dispepsiya zamanı xəstəliyin klinikasına müsbət təsir göstərməklə, müalicənin 10-cu günündə bütün patoloji dəyişikliklər aradan götürülürdü, trombositlərin miqdarı isə norma ətrafında müəyyən edilirdi.

Hidrolizat jelatinin və xlorid turşusunun müsbət nəticələrini nəzərə alaraq, biz dispepsiya zamanı buzovların orqanizminin rezistentliyini yüksəltmək

üsullarının işlənib hazırlanması və müalicə istiqamətində tədqiqatlar apardıq.Bu üsul artıq məlum olan üsuldan onunla fərqlənir ki, jelatinin hidrolizi 0,1 n limon turşusunun məhlulunda aparılır. Məlumdur ki, bu məhlul toksiki deyil və hətta orqanizmin hüceyrə tənəffüsünün biokimyəvi reaksiyaları sistemində lazımlıdır.

Jelatinin 0,1 n limon turşusunda hidrolizini avtoklavda 120$^0$C temperaturda və 1 atmosfer təzyiq altında 10-15 dəqiqə müddətində və yaxud çətin əriyən şüşə qabda qaynatmaqla aparırlar. Kolloid məhlulun hazırlanması (avtoklavda və yaxud qaynatmaqdan əvvəl) əvvəlcə otaq temperaturunda 2-3 saat müddətində jelatinin şişməsi məqsədilə aparılır. Komponentlərin nisbəti: 100 qram jelatinə 2,6 litr limon turşusunun 0,1 n məhlulu götürülür.Bu məhlulu 1 litr distillə edilmiş suda 21,0 qram kristal limon turşusunun həll olunması yolu ilə hazırlayırlar.

Müalicənin birinci günü preparat 80-120 ml dozadagündə 2 dəfə,sonrakı 2-3 gündə ərzində isə 3 dəfə ağız südü ilə qarışdırılıb verilir. İşlənib hazırlanmış preparatın 6-7 gün ərzində tətbiq olunması nəticəsində xəstə buzovların 100% sağalması, bütün göstəricilərin fizioloji normaya düşməsi müşahidə olunur, təcrübə nəticələri göstərdi ki , profilaktiki məqsədlə işlətdikdə isə buzovlar dispepsiya ilə xəstələnmirlər.

Tədqiqatlar göstərdi ki, hidrolizat bakteriostatik və lizisə uğramaq xüsusiyyətlərinə malikdir, o bağırsaq mikroflorasının çürüdücü mikroflorasını və salmonellaların inkişafını dayandırır. Təklif olunan üsul asan hazırlanma yolu və müalicənin yüksək səmərəliliyi ilə seçilir.

Eyni təsiri 7%-li xlorid turşusu məhlulunda jelatinin hidrolizi zamanı alınan preparat göstərir. Komponentlərin nisbəti aşağıda qeyd olunan kimi götürülür: 15 q jelatin + 300 ml su + 150 ml 7%-li xlorid turşusu məhlulu.

Yeni doğulmuş buzovların dispepsiyasının müalicə və profilaktikası məqsədilə təklif olunan müalicə üsulları yüksək səmərəliliyi və istifadədə sadəliyi ilə seçilir.

Yeni doğulmuş buzovların dispepsiyasının müalicəsi zamanı təklif olunan çoxsaylı müalicə, eləcə də profilaktika vasitələri, həm dispepsiya, həm də yeni doğulmuş buzovların başqa xəstəlikləri zamanı müxtəlif amillər nəzərə alınmaqla daima təkmilləşir.

Dispepsiya ilə xəstə buzovların orqanizmində gedən hormonal dəyişikliklər zamanı müalicə məqsədilə sintetik immunomodulyatordan –timogendən istifadə olunması təklif olunmuşdur [3]. Müəlliflər müəyyən etdilər ki, həmçinin ana inəklərin qanında keton cisimlərin, qlükozanın və zülalın səviyyəsi normadan yüksək olur. Timogen əsasən triptofan amin turşusundan və qlutamin turşusundan ibarətdir[4,7]. Əzələiçi 10 ml dozada timogenin 0,01%-li məhlulunu 10 gün tətbiq etdikdə, kortizonun səviyyəsi 30,4% aşağı düşür.

Lakin, yeni doğulmuş buzovlarda funksional dispepsiya zamanı formazin-50 və timogenin kompleks tətbiqi zamanı yaxşı nəticə əldə olunmuşdur. Bu zaman müalicəyə başladıqdan 8-10 gün sonra 91,6% körpələrdə sağalma qeyd olundu, canlı kütlənin artımı isə bir gündə 481 q təşkil etdi.

Bu preparatların kompleks şəkildə tətbiqi10-cu günü qanın tərkibində ümumi zülalın, əsasən də albuminlərin, γ və β-qlobulinlərin səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu fizioloji xüsusiyyətlərin aşağı sərhədinə uyğun olaraq xəstəliyin kəskin fazasının olmamasınıvə mədə-bağırsaq funksiyasının pozğunluqları proseslərinin və immun sistemin bərpa olunmasını göstərir.

**ƏDƏBİYYAT**

1.Nəsibov F.N., Gəncəyev İ.F., Məmmədov H.B. Körpə kənd təsərrüfatı heyvanlarının daxili xəstəlikləri, Bakı, 2009, 236 s. 2.Gəncəyev İ.F., Nəsibov F.N. Kənd təsərrüfatı heyvanlarının daxili xəstəlikləri, Bakı, 2016, 580 s. 3.Бондаренко Е. Гормональные показатели крови при лечении новорожденных телят с диспепсией /Е.Бондаренко, Н.Безбородов//Молочное и мясное скотоводтво.2009,№2.-С.33-35. 4.Безбородов Н. Применение иммуномодулятора тимогена для лечения телят с функциональной диспепсией /Н.Безбородов, Е.Бондаренко//Молочное и мясное скотоводтво.2009,№2.-С.24-26. 5.Лаптев Г. Микробиология рубца КРС/Г.Лаптев, Л.Кряжевских //Животноводтво.Октябрь 2008.С.56-57. 6.Медведев И.Н. и др. Тромбоцитарные нарушения у новорожденных телят с диспепсией //Зоотехния,2007.-№11.-С.19-20. 7.Олейник А. Неонатальные диареи телят//Молочное и мясное скотоводтво.2009,№2.-С.26-28.

**Способы лечения и профилактики желудочно-кишечных заболеваний телят**

**Ф.Н. Насибов, А.А. Мамедова**

При лечении телят, больных диспепсией, применяют белковые препараты. Белковый гидролизат хорошо стимулирует организм животного и подтверждает высокую эффективность только в начале болезни.

Учитывая положительные результаты применения гидролизата желатина, соляной кислоты, мы провели исследования по разработке способа повышения резистентности организма телят и лечения при диспепсии. Этот способ отличается от уже известного тем, что гидролиз желатина проводится в 0,1 н растворе лимонной кислоты. Известно, что этот раствор является не токсичным, но необходимым в системе биохимических реакций клеточного дыхания в организме.

***Ключевые слова**: телята, диспепсия, колибактериоз, лечение, профилактика, тканевые препараты, гидролизат*

**Methods of treatment and prevention of gastrointestinal diseases of calves**

**F.N. Nasibov, A.A. Mamedova**

In the treatment of calves with dyspepsia, protein preparations are used. Protein hydrolysate well stimulates the body of the animal and confirms high efficiency only at the beginning of the disease.

Taking into account the positive results of the use of hydrolyzate gelatin, hydrochloric acid, we conducted research on the development of a way to increase the resistance of the body of calves and treatment for dyspepsia.This method differs from the already known in that the hydrolysis of gelatin is carried out in 0.1 n citric acid solution. It is known that this solution is not toxic, but necessary in the system of biochemical reactions of cellular respiration in the body.

***Keywords**: calves, dyspepsia, colibacteriosis, treatment, prevention, tissue preparations, hydrolyzate*